# İGİDLİYİN POVESTİ

*(Əvvəli ötən sayımızda)*

Müharibə insanın ən nadir keyfiyyətlərini üzə çıxarmaq gücündədir. Bəzən olur ki, kimisə biz sakit təbiətdə görürük. Hətta o qədər sakit təbiətdə görürük ki, onun nə vaxtsa cəsarət göstərə biləcəyini belə təsəvvür etmirik. Amma müvafiq şərait yetişəndə onun necə cəsarətli, qoçaq, ölümün gözünün içinə dik baxa bilən birisi olduğunu görəndə təəccüblənirik. İş burasındadır ki, bunun tərsi olan vəziyyətlər də müharibə zamanı üzə çıxa bilir. Məsələn, birisinin sülh vaxtı qoçaq, dilli-dilavər, hər hansı bir məsələdə cəld, çevik hərəkət etməsinə baxıb onun qəhrəman, igid olduğunu düşünürük. Amma döyüş zamanı beləsi ölümün nəfəsini hiss edən kimi qara qorxuya düşür, cəsarət edib irəli addım ata bilmir, hətta döyüşçü yoldaşlarına yük olur. Bax müharibənin belə mənzərələri var. Şəddad Cəfərovun təsvirlərindən görürük ki, onun qəhrəmanları hələ təlim zamanı bişiblər. Onlar nəyin uğrunda mübarizə apardıqlarını, niyə, hansı səbəbdən döyüşdüklərini yaxşı anlayırlar. Bir müəllif kimi Şəddad Cəfərov müharibənin əhatə etdiyi əraziləri, təbii şəraiti, vəziyyətə uyğun olaraq təsvir edir, onun üçün düşmən mövqeləri ilə döyüşçülərimizin arasındakı məsafə təkcə döyüşən tərəflər üçün təmas xətti deyil, həm də yazıçı düşüncəsi üçün təmas xəttidir. Ona görə də yazıçı əsgər taleyini bir anda olsa, yaddan çıxarmır. Öz oxucusu ilə birgə bu qəhrəman döyüşçüləri müşayiət etməkdədir: "İrəlidə tikanlı məftillər görsənirdi. Rüstəmov keçidi keçmək lazım olduğu haqqda komanda verdi. Vaxt çox ağır ötürdü. Uşaqlar gəlib çıxdılar. İndi yola davam etmək lazımdır. Saat yarım, bir saat keçdi. Şərq tərəfdə nə isə işıqlanmağa başladı. Bir raket sönəndə, o birisi onu əvəz edərək uçurdu. Düşmən səngərinə qədər yüz metirlik məsafə qalmasına baxmayaraq, ora yaxınlaşmaq asan deyildi. Raketlərdən biri sönməyə başladı. Baloğlan irəliyə doğru sıçrayaraq çuxura atıldı. Onun ardınca başqa kəşfiyyatçılar da oraya atıldılar. Bir raket başının üstündən keçdi. Almanların səsi açıq-aydın gəlirdi. Gizləndikləri yerdən başını qaldıran Baloğlan kəşfiyyatçılara hazır olmaqlarını tapşırdı. İndi hamısı xəndəyin içində idi. Diqqətlə qulaq asmağa başladılar. Onlara elə gəlirdi ki, hər şey qaydasında idi. Düşmənin harda gizləndiyini aşkar edə bilmirdilər. Rüstəmov düşmənin qarşısını almaq üçün burada bir qrup döyüşçü qoydu. Onlar atəş açmalı və ələ keçirilən "dil"i aparmağa imkan yaratmalı idilər. Baloğlan çiyin hərəkətləri ilə tərpənmək vaxtı olduğunu bildirdi". Baloğlan Rüstəmovun "dil" gətirmək əməliyyatları dəfələrlə olub. Müharibə situasiyalarından xəbərdar olan hər kəs yaxşı bilir ki, hazırlanan əməliyyatların uğurla keçməsində "dil"in nə qədər böyük əhəmiyyəti var. Baloğlan Rüstəmovun bu sahədə xüsusi bacarığını Şəddad Cəfərov dəqiq müharibə faktları ilə oxucusuna çatdırır.

Şəddad Cəfərovun təbiət elementləri ilə, qəhrəmanlarının duyğularını qarşılaşdırmaq baxımından təsvirləri son dərəcə maraqlıdır, yadda qalandır. Göyün üzü açıqdırsa, ay doğubsa, demək hər tərəf görünür. Yazıçı bu məqamı çox həssaslıqla verə bilir: "Ay da elə bil qəsdən görünməyə başladı. İri, açıq, işıqlı bir ay. Belə bir anda Baloğlan öz-özünə - "Sən kimə kömək edirsən", - deyə deyindi də. Belə ay işığında düşmən onları görə bilərdi. Döyüşçülər yerə uzanaraq düşmən səngərinə qədər sürünə-sürünə gəlib çatdılar. Yaxınlıqda səslər eşidildi". Belə hallarda yazıçı həssaslığı oxucunun düşüncəsinə də sirayət edir. Sanki oxucu Allaha yalvarır ki, o gözəgörünməz gücü ilə döyüşçülərə kömək etsin.

Baloğlan Rüstəmovun qəhrəman obrazı yazıçının bu əsərində kifayət qədər əzəmətlidir, canlıdır. Onun hər bir gözlənilməz məqamdakı hərəkəti bizdə qürur doğurur. Düşünürük ki, Baloğlan Rüstəmov üçün heç bir gözlənilməz vəziyyət yoxdur. O hər bir çətinlikdən, hər bir ağır vəziyyətdən çıxış yolu tapa bilər: "Onlara elə gəldi ki, burada da iki nəfər idilər. Göyün işığı fonunda pulemyotların cizgiləri görünürdü. Məsələ aydındır. Onlar pulemyotları gizli şəkildə saxlamışdılar. İndi heç bir dəqiqə də itirmək olmazdı. Faşistləri qorxuya salmaqçün onları gözlənilmədən ələ keçirmək lazımdır. Rüstəmov səngərə tərəf qumbara atdı. Sonra özləri də səngərə atıldılar. Baloğlan əlində bıçaq birinin üstünə sıçradı, eyni zamanda yanındakı kəşfiyyatçıya da o biri "dil"i ələ keçirməyə kömək elədi. Onları sağ-salamat qərargaha aparmaq lazım idi. Hitlerçilər isə hiddətlənmişdilər. Görünür, onlar nə baş verdiyini başa düşmüşdülər. Hər tərəfi raketlə işıqlandırırdılar. Bütün pulemyotlardan atəş açırdılar. Bizim müdafiəçilərimizdə işə keçdilər. Kəşfiyyatçılar isə xəndəklərdən atırdılar. Artıq onlar öz səngərlərinə çataraq yaşıl fişəng atdılar. Deməli, hər şey öz qaydasında idi. Döyüşçülər "dil"lə maraqlandılar. Rüstəmov ələ keçirdikləri "dil"dən vacib məlumatlar topladığını da bildirdi". İkinci Cahan savaşının qələbə tarixi bizdən 75 il uzaqlaşıb. Bu həmin qələbə günündə doğulan insanın 75 yaşı deməkdir. Bizim Qarabağ savaşındakı qələbəmizdən 1 ay 10 gün keçir, yəni 40 gün.

Əgər 75 il bundan əvvəlki tarixi unutmamışıqsa, demək gələcək nəsillər erməni faşizmi üzərindəki qələbəmizi də heç vaxt unutmayacaq.

Baloğlan Rüstəmovun varisləri olduğu kimi Şəddad Cəfərovun da varisləri tarixi yaddaşa çevirmək gücündə olacaqlar.

* * *

Alman faşistləri ilə müharibə 5 il çəkdi, erməni faşistləri ilə Azərbaycan ordusunun savaşı 44 günə başa çatdı. İş burasındadır ki, müharibənin az, ya çox davam etməsindən asılı olmayaraq onun dəhşətləri bir-birinə çox bənzəyir. Azəbaycan ordusunun əsgərləri Şuşaya daxil olarkən, iradələri, əzmləri, inadları ilə qeyri-adi qəhrəmanlıq salnaməsi yaratdılar.

Şəddad Cəfərov döyüş səhnələrini yazarkən bir məqama xüsusi diqqət verir. Sanki o oxucusuna aşılamaq istəyir ki, müharibədə hər kəsin öz yeri var. Ancaq kəşfiyyatçının yeri tamam başqadır. Kəşfiyyatçı hər cəhətdən hazırlıqlı olmalıdır. Fiziki cəhətdən möhkəm, dözümlü, eyni zamanda fəhmili, çevik olmaqla kəşfiyyatçı öz məqsədinə daha uğurla nail ola bilər. Şəddad Cəfərov öz povestində kəşfiyyatçıları kifayət qədər canlı verə bilir. Onların ayrı-ayrı döyüşlərin taleyindəki rolunu dəqiq göstərə bilir: "Belə bir hadisə baş vermişdi. Bizim kəşfiyyat qrupumuz qərargah blindajını dörd ədəd tank əleyhinə qumbaralarla dağıtmışdılar. Çoxlu faşist məhv oldu. Sağ qalan ober-leytenant əllərini yuxarı qaldıraraq təslim oldu. Belə döyüş epizodları çox idi. Nəhayət, uzun müddət gözlədikləri vaxt gəlib çatdı. Artıq sovet torpağı xilaskar əsgərlərimizin arxasında qalmışdı. Qoşunlarımız dövlət sərhədini keçərək Polşa torpağına daxil olmuşdu. Hitlerçilər beş ildən artıq idi ki, bu ölkədə at oynadırdılar. Aşırımların birində Rüstəmovun kəşfiyyatçılarının yanına siyasi hissə üzrə tabor rəhbərinin müavini gəldi. Salamlaşdıqdan sonra o, döyüşçüləri dövlət sərhədini keçmələri münasibətilə təbrik etdi. Sonra sözünə davam edərək Qızıl Ordumuzun qarşısında duran beynəlmiləl borcun öhdəsindən gələ biləcəyini bildirdi. Döyüşçülərin qarşısında vacib tapşırıq-Polşanın faşist köləliyindən azad edilməsi dururdu. Polşa fəhlə və kəndliləri ziyalıların hamısı bizim döyüşçülərimizin dostları idilər".Biz dəfələrlə qeyd etmişik ki, erməni faşistləri öz təbiətləri ilə daha çox yırtıcı, daha çox mənfur insan adı ilə bir yerə sığışmayan xüsusiyyətlərə malikdirlər. Onlar işğal etdikləri əraziləri təkcə talan eləmir, həm də insanları ən qəddar zülümlərə, əzablara məruz qoyurlar. Amma Şəddad Cəfərovun əsərində dövlət sərhəddini keçən Sovet ordusu ilk dəfə Polşa xalqı ilə qarşılaşanda, özünün xilaskarlıq missiyası ilə gəldiyini rəftarında göstərdi. Sovet Əsgərləri insanlara qarşı son dərəcə mülayim davranır, əsil insanlıq münasibəti göstərirdilər. Bu məqam əsərdə çox əsaslandırılmış şəkildə verilib. Müəllif özü sanki siyasi komandir rolunda görünür. O hər bir dinc sakinə olan münasibəti əsgərin təmsil etdiyi dövlətin münasibəti olduğunu diktə edir. Siyasi rəhbər həm də əsgərin mənəvi cəhətdən hazırlanmasına cavabdehdir. Ona görə də Şəddad Cəfərov bu məqamları əsər boyu diqqətində saxlayır: "Sonra siyasi işçi bildirdi ki, Sovet ordusu ilə birlikdə öz Vətəninin xilas edilməsi uğrunda döyüşlərdə Polşanın qoşun bölmələri də iştirak edəcək. Krata Rada Narodova bunun üçün xüsusi qanun qəbul edib. Ölkə də Polşa Milli Azadlıq Komitəsi yaradılıb. Siyasi rəhbərin müavini Polşaya dair heç bir ərazi iddiası edilmədiyini bildirdi. Polşanın gələcək dövlət quruculuğunun sonrakı mərhələsini xalq özü həll etməlidir. Bu onun hüququdur, onun iradəsidir.Siyasi işçi siqaretini çəkib qurtardıqdan sonra Polşa torpağında xilaskar döyüşçünün özünü necə aparması barədə tövsiyyələr verdi. O, bizim hər bir döyüşçüyə diqqətli və ayıq olmağı, hər bir səhvinin düşməni sevindirəciyini də qeyd etdi. Biz özümüzü yerli əhali ilə əsil dost kimi aparmalıyıq və həmişə ayıq-sayıq olmalıyıq. Sonra isə siyasi rəhbərin müavini kəşfiyyatçıların suallarına cavab verdi". Doğrudur, siyasi rəhbər nə qədər təlimat verir versin, nə qədər müzakirələr aparılır aparsın, dəxli yoxdur, əsas məsələ döyüş meydanında həll olunur. Vəziyyəti idarə edən döyüşçünün iradəsi, qoçaqlığı, igidliyidir. Bütün bunlara baxmayaraq hər halda döyüşçü də mənəvi cəhətdən silahlı olmasa, onda gərgin hallarda vəziyyətdən çıxış yolu tapa bilməz. Əsil döyüşçü qəhrəmanlığı o vaxt üzə çıxır ki, əsgər odlu silahı ilə düşüncəsindəki mənəvi hazırlığı birləşdirə bilir. Bu zaman əsgər əlbəttə, yenilməz olur.

Şəddad Cəfərovun bu cür təsvirləri istər-istəməz bizə imkan verir ki, Azərbaycan ordusunun son döyüşlərdəki mənəvi hazırlığı ilə Sovet ordusunun qələbəsini şərtləndirən cəhətləri müqayisə edək.

Rusiya mətbuatı son günlər yazırdı ki, Şuşaya hücum zamanı Azərbaycan əsgərlərinin sarsılmazlığı, igidliyi bizi heyrətə gətirmişdi. Rusiya jurnalistləri şahidi olduğu hadisə haqqında yazırdılar ki, bunlar necə adamlar idi ki, heç nədən qorxub çəkinmədən dağların sıldırımları ilə Şuşaya doğru qalxırdılar. Qəribə idi ki, Azərbaycan əsgərləri öz yaralılarını, şəhidlərini də geridə buraxmırdılar. Özləri ilə keçilməzliklərdən dartıb yuxarıya doğru irəliləyirdilər. Hətta onlar döyüş səhnələrini çəkməyə də imkan tapırdılar. Bax bütün bunlar göstərir ki, əsgərin mənəvi hazırlığı nəyə qadirdi.

Bu yalnız o zaman mümkün ola bilər ki, əsgər üçün qaranlıq heç nə olmasın. Azərbaycan əsgəri dərk edirdi ki, o öz torpağı uğrunda vuruşur. Həttə həlak olsa belə, öz torpağının üstündə təzədən bitib qalxacaq. Onlar öz inamları ilə irəliləyirdilər. Biz bu məqamda sanki Şəddad Cəfərovun qəhrəmanlarının varislərini görürük.

Şəddad Cəfərovun "Nəsillərə nümunə" əsərinin qəhrəmanı Baloğlan Rüstəmov təkcə Sovet ideallarına görə vuruşmurdu, o həm də Bakı neftini talan etmək üçün gələn faşizmə qarşı vuruşurdu. O bilirdi ki, Alman faşistləri dünyanın heç bir ölkəsinə. O cümlədən də Azərbaycana da xoşbəxtlik gətirməyəcək. Kim bəla gətirirsə, onun cavabı da yerindəcə və yetərincə verilməlidir.

Yenidən müəllifin təsvir elədiyi döyüş mənzərəsinə qayıdaq: "Onlar yenidən döyüşlərə atıldılar. Hücuma keçən avanqard hissələr düşmənin güclü müqavimətinə, demək olar ki, hər yaşayış məntəqəsində rast gəlirdi. Bəzi yerlər də isə hitlerçilər bizim döyüşçülərimizi 6-7 kilometr geri sıxışdırmağa da nail olmuşdular. Kəşfiyyatçılar rayonların birində xeyli sayda düşmən əsgərinin və 10 tank, 20 zirehli transportyorun cəmləşdiyini gördülər. Faşistlər hücuma hazırlaşırdılar. Bu haqda komandanlığa məlumat verildi". İrəlidə gedən əsgərin uğurunu təmin edən cəhətlərdən biri də komandanlıqla əlaqənin ardıcıl qorunmasıdır. Əgər komandanlıq düşmən müqavimətinin miqyasını vaxtında təyin edə bilməsə, onda ağır itkilər qaçılmaz olur. B.Rüstəmovun bu məqamları vaxtında və yetərincə nəzərə alması, onun döyüşdən-döyüşə uğurlu keçidlərini təmin edirdi.

Sovet ordusunun əsgərləri məhz siyasi hazırlıqları, komanda məntəqəsi ilə sıx əlaqə sayəsində uğurla irəliləyir, düşmənin öz yuvasına doğru döyüşdən-döyüşə onun müqavimətini qırır, zəfər yürüşünü davam etdirirdi. Məqamı gəldikcə Şəddad Cəfərovun ayrı-ayrı epizodları müharibə qəhrəmanlarının əfsanəvi obrazını yaradır: " Polşada Sandamir meydanında belə bir hadisə baş vermişdi. San çayını keçmək və meydanı ələ keçirmək üçün qarşı sahildə əməliyyat aparmaq məqsədilə bərk-dən-boşdan çıxmış bölmələr və könüllülər güclü cəsur əsgər və zabitləri seçmişdilər". Bəzən döyüşün xarakterinə görə hansı tərəfdə kim, necə vuruşa bilər, bunu komandirlər müəyyənləşdirir, əsas qüvvələri nəzərə ala bilirlər. Göründüyü kimi, Şəddad Cəfərovun da təsvirlərində biz döyüşdə hər bir əsgərin özünü harda, necə təsdiq edə biləcəyini komandirlər diqqətdən kənarda qoymurlar.

Zaman keçdikcə bir çox hadisələr yaddan çıxır, unudulur, ancaq yazıçılar öz təxəyyüllərinin gücü ilə istinad elədikləri faktlar əsasında həmin hadisələri düşüncələrində bərpa edir, yazıya gətirirlər.

Hər bir yazıçının missiyası yeni nəsilləri ötən zamanların tarixi təcrübəsi ilə silahlandırmaqdır. Belə silahlandırmalar, belə yaddaş mexanizmi olmasa, onda nəsillər arasında varislik əlaqəsi qırılar. Yeni nəsillər mənən gücsüzləşər, öz ideallarından məhrum olarlar. Haqq işi uğrunda mübarizə aparan Azərbaycan ordusunun güc mənbəyi kimi yaddaşlarda yaşayan qəhrəmanların obrazı bizim üçün əsasdır.

Şəddad Cəfərovun "Nəsillərə nümunə" əsəri möhtəşəm "İgidliyin povesti" kimi məhz yeni nəsillərin yaddaşının qorunmasına xidmət edir.

Əsər boyu bir-birini dəyişən mənzərələr nə qədər tarixlə bağlı olsa da, bu günümüzlə də çox səsləşir. Elə bu əsərin dəyəri də yaddaşda varisliyi təmin etməsindədir.

*(Davamı var)*

***Ceyhun ZALLI***